*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 avqust 2015-ci il | № 61 (1977) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti Oleqario Vaskes Ranyanı və baş katibi Frans Şrayberi qəbul edib.***

***Dövlətimizin başçısı müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən dünya səviyyəli idman yarışlarının keçirilməsi üçün təkcə ölkəmizin paytaxtında deyil, regionlarda da müasir infrastrukturun yaradıldığını vurğuladı və bu baxımdan atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının Qəbələ şəhərində keçirilməsinin önəmini qeyd etdi.***

***Görüşdə Beynəlxalq İdman Atıcılıq Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olundu.***

* * *

***✓ Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyəzən-Məşrif avtomobil yolunun açılışında iştirak edib.***

***Dövlətimizin başçısına məlumat verildi ki, Siyəzən rayonunun bir neçə kəndini birləşdirən və hərəkətin intensiv olduğu bu yol uzun müddət təmir edilmədiyindən bərbad vəziyyətə düşmüşdü.***

***Prezident İlham Əliyevin 2012-ci il 11 iyun tarixli Sərəncamına əsasən, yolun tikintisinə ilkin olaraq 7 milyon, daha sonra 5,7 milyon manat vəsait ayrılıb. 2012-ci ilin oktyabrında başlamış tikinti işləri bu ilin mayında yekunlaşıb. Eni 5, bəzi yerlərdə isə 7 metr olan 3-cü və 4-cü dərəcəli yola 10-11 santimetr qalınlığında asfalt döşənib. Yol üzərindəki mühəndis-texniki qurğular müasir səviyyədə qurulub. Rayonun 20 yaşayış məntəqəsini birləşdirən və 37,1 kilometr uzunluğunda olan bu rahat və abad yoldan ümumilikdə 4700-dək sakin istifadə edəcək.***

***Azərbaycan Prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi.***

* * *

***✓ Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şabran rayonunun ərazisində yerləşən "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin açılışında iştirak edib.***

***Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək otel, villa və kottecləр var.***

***Sonra dövlətimizin başçısı kompleksin kollektivi ilə görüşdü.***

**AZƏRTAC-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# Vətənimizin dağ vüqarlı keşikçiləri

**Ali Baş Komandan İlham ƏLİYEV:**

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*



Yolumuz səddi keçilməz dağlara sarıdır...

Maşın uca dağlara qalxdıqca sürücü əsgər Ceyhun Məmmədov süräti cəld tənzimləməyə çalışır. Hiss olunur ki, çətin yoxuşlarda avtomobil idarə etməyin sirlərini dərindən mənimsəyib.

Budur, maşınımız dəniz səviyyəsindən 1000 metrdən çox yüksəklikdə olan yamaca çıxır. Burada silsilə zirvələrin baş-başa verdiyi gözəl təbiət mənzərələri, sıldırım qayaların möhtəşəmliyi qəlbimizə hakim kəsilir, tər-təmiz dağ havası Vətən torpağının şirinliyini daddırır bizə. Ölkəmizin cənnət məkanlarından sayılan bu yerlərə də on illərdir erməni işğalçılarının qənim kəsilməsi ürəyimizi göynədir. Diqqətimi yaşıl xalıya bənzər sıx meşələr çəkir. Deyirlər, vələs, fıstıq, fındıq ağaclarının çoxluq təşkil etdiyi bu zəngin meşələrdə nadir ağaclar da bitir. Buralar həm də nəsli kəsilməkdə olan ceyran, cüyür, maral, ayı, qaban və digər heyvanların məskən saldığı yaşıllıq zonasıdır. Bu yerlərin faunası, florası - hər cığırı, hər ağacı, qayalardan qopan hər bir daşı Vətənimizin bir parçasıdır.

Gecəsi-gündüzü olmayan vətənpərvər hərbçilərimizin fədakarlığı sayəsində mərdliklə qorunan bu ərazilərimizi Ermənistan silahlı qüvvələri dəfələrlə müxtəlif silahlardan atəşə tutur. İgid döyüşçülərimizin ayıq-sayıqlığı nəticəsində erməni silahlılarının atəş nöqtələri vaxtında susdurulur, düşmənin kəşfiyyat-təxribat qrupunun hücum cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Zabit Rafiq Mustafayev fəxrlə deyir ki, düşmən atəşkəsi pozarkən və hücuma cəhd göstərərkən hərbçilərimiz onların qarşısını peşəkarlıqla alırlar. "Əsgər və zabitlərimizin çətin, dağ, meşə ərazilərində döyüş növbəsi aparması onların yüksək hazırlıqlarının göstəricisidir. Təmas xətti düşmənlə üzbəüzdə gördüyümüz bu hündür dağ silsiləsi və qalın meşələrdən keçir. Vətən keşikçiləri əlverişsiz iqlim şəraitində gecə-gündüz bu əraziləri göz bəbəyi kimi qoruyurlar", - zabit R.Mustafayev artıq cəbhə xəttinə - bölmələrimizin yerləşdiyi əraziyə çatdığımızı bildirir.

Ərazidə sanki həyat qaynayır. Bir tərəfdə döyüşçülərimizə günorta yeməyinə xörək bişirilir, digər tərəfdə isə samovar qaynadılır. Xörəyin xoş ətri ətrafı bürüyüb. Aşağıdakı hərarət dayandığımız yüksəklikdə qətiyyən hiss olunmur. Bu yerlər çox sərindir.

Gördüklərimi qeyd edib dəftərçəmə köçürürəm.

Döyüş növbəsi aparan əsgərlərdən Tamerlan Hüseynovdan:

- 1000 metrdən çox hündürlükdə düşmənlə üzbəüz mövqedə dayanmaq çətin deyilmi? - soruşanda, sualıma qısa və konkret cavab alıram. "Nə qədər çətindirsə, o qədər də şərəflidir". Əsgərin cavabı qürurla səslənir.

T.Hüseynov hərbi xidmətə Qusar rayonundan çağırılıb.

"Keçirilən təlim-məşqlərdə yüksək nəticələr göstərmişəm. Atış və döyüş məşğələlərində silahlardan istifadə qaydalarını bizə həvəslə öyrədən komandirlərimə borcluyam. Dünən təlimdə tökdüyüm tər, bu gün döyüşdə mənə uğur qazandırır", - deyən əsgər gözlərini ön mövqelərdən çəkmir.

(Ardı 2-ci səhifədə)

***Özünü qondarma "Dağlıq Qarabağ respublikası"nın xarici işlər naziri kimi təqdim edən Karen Mirzoyan adlı şəxsin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müsahibəsində səsləndirdiyi əsassız fikirlərə cavab olaraq Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqovun bu ölkənin "İl giornale" qəzetinin saytında məktubu yerləşdirilib.***

# İtaliya qəzeti Azərbaycan səfirinin Dağlıq Qarabağdakı separatçı rejimin "naziri"nin əsassız fikirlərinə cavab məktubunu yayıb

Səfir məktubda bildirir ki, bu silahlı separatçı rejim Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində fəaliyyət göstərir. Hər kəsə məlumdur ki, bu qondarma qurum Ermənistan da daxil olmaqla dünyanın heç bir ölkəsi tərəfindən tanınmayıb. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, habelə digər beynəlxalq təşkilatların sənədlərinə məhəl qoymur. Bu yaxınlarda Avropa Məhkəməsinin "Çıraqov və digərlərinin Ermənistana qarşı" işi üzrə azərbaycanlı məcburi köçkünlərin xeyrinə verdiyi qərar Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı məsuliyyət daşıdığını bir daha təsdiq etdi.

V.Sadıqov vurğulayıb ki, K.Mirzoyan həqiqətləri təhrif edərək münaqişədə Dağlıq Qarabağın tərəf kimi iştirakını qeyd edir. Lakin Ermənistan hərbi qüvvələrinin Azərbaycan ərazilərinə hücumu beynəlxalq birlik tərəfindən təsdiqlənmiş bir faktdır. O deyib: "Müsahibədə səslənən yanlış fikirlərdən biri də Dağlıq Qarabağda yaşayan ermənilərlə bağlıdır. Xatırlatmaq istərdim ki, bu bölgədə yaşayan ermənilər "xalq" deyil, sadəcə Azərbaycanda yaşayan digər etnik qruplardan biridir. Separatçı rejimin nümayəndəsi "unudur" ki, Ermənistan tərəfindən aparılmış etnik təmizləmə nəticəsində Dağlı Qarabağda yaşamış 50 min azərbaycanlı və işğal olunmuş digər 7 ətraf rayonda yaşamış 700 min soydaşımız oradan qovulub. Dağlıq Qarabağın danışıqlar prosesinə tərəf kimi cəlb olunması məsələsinə gəldikdə, bu barədə Azərbaycanın mövqeyi qətidir: ölkəmizlə separatçı rejim arasında heç bir danışıqlar ola bilməz".

Səfir bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi, dini, mədəni abidələr tamamilə dağıdılıb, ümumi dəyən zərər 60 milyard ABŞ dolları həcmindədir.

Diqqətə çatdırılıb ki, problemin həlli mövcud reallıqları nəzərə almaqla həyata keçirilə bilər. Bu reallıq da Azərbaycan ərazilərinin işğalı və beynəlxalq hüququn prinsiplərinin Ermənistan tərəfindən pozulması ilə bağlıdır. Danışıqlar prosesi uğursuzluğa düçar olduğu təqdirdə ölkəmiz torpaqlarını hərb yolu ilə geri qaytarmaq iqtidarındadır.

**AZƏRTAC**

# Müdafiə naziri Türkiyənin hərbi attaşesi ilə görüşüb



***Avqustun 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov fəaliyyət müddəti başa çatan Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşesi briqada generalı Hasan Nevzat Taşdeler ilə görüşüb.***

Görüşdə yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkil olunduğu, regiondakı hərbi-siyasi vəziyyət, hərbi-təhsil məsələləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi, ikitərəfli əməkdaşlıq məsələlərinin əhəmiyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüş zamanı Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hasan Nevzat Taşdeleri növbəti hərbi rütbə alması münasibətilə təbrik edərək onu "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Hər səngər bir qaladır

***Son bir ildir ki, cəbhədə mövqelərarası intensiv atışlar baş verir. Səngərlərdə gecə-gündüz döyüş növbəsində dayanan əsgərlərin üzərinə daha böyük məsuliyyət düşür. Onlar səhəri gözlərini qırpmadan qarşılayır, mövqelərində ayıq-sayıq dayanırlar. Bu səbəbdən də düşmən təxribatının qarşısı vaxtında alınır, işğalçılar itki verərək geri çəkilirlər.***

Cəbhə bölgəsində yerləşən hərbi hissənin qərargahında çoxdan tanıdığım Qarabağ müharibəsi iştirakçısı polkovnik-leytenant Elşən Əliquliyev görüşəndə bildirdi ki, gecə düşmən cəbhənin bir neçə istiqamətində postlarımıza hücuma cəhd edib. Döyüşçülərimizin sayıqlığı nəticəsində bunun qarşısı alınıb və düşmən itkilər verməklə geri çəkilməyə məcbur olub. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit əlavə etdi ki, bundan sonra da düşmənə qarşı ağır zərbələr vurmaqla onların niyyətinə imkan verilməyəcəkdir.

Bəli, düşmən cəbhənin bütün istiqamətlərində atəşkəs rejimini pozmaqla özünün ayaqda olduğunu bizə göstərməyə çalışır. Düşmənin daxili aləminə yaxından bələd olan peşəkar zabitlərimizdən biri ermənilərin iç üzünü dilimizdə olan məşhur bir kəlam ilə açır:

- Deyirlər, ay it, niyə hürürsən? İt deyir, - qorxuduram. - Bəs niyə quyruğunu qısırsan? İt deyir, - qorxuram. Bu gün cəbhədə ermənilərin tez-tez atəşkəsi pozmasını daha çox bu məsələ bənzətmək olar.

Atışlar zamanı düşmənə daha çox fəal cavab verən döyüşçülərin mövqelərinə yola düşürük. Mayor Fəzail Həşimovla ön xətdə yerləşən postlara çatırıq. Bölmənin ehtiyatında zabit Aqil Şıxəliyevlə görüşüb söhbət edirik. Zabit bildirdi ki, gecə səhərə qədər bir neçə postda döyüş olub. Onlar səhəri ayıq gözlə açıblar.

- Biz bundan qəti narahat deyilik, - deyə zabit sözünə davam edir. - Başlıca məqsədimiz düşmənin istənilən hücumunun qarşısını almaqdır. Bunun üçün bütün gücümüzlə çalışırıq ki, düşmən məqsədinə çatmasın.

Zabit A.Şıxəliyev onu da bildirdi ki, yüksək atıcılıq qabiliyyətinə malik cəsur döyüşçülərimiz var. Onlar verilən tapşırıqları yüksək səviyyədə icra edirlər. Belə döyüşçülərdən birinin baş leytenant Pərvin Muradov olduğunu öyrəndik. Onun komandiri olduğu bölmənin dayaq məntəqəsi düşmənin daha çox atəşinə məruz qalıb. Çox keçməmiş bir vaxtlar özümün də xidmət etdiyim həmin postlara gəldim. Burada bizi kapitan Vidadi Verdiyev qarşıladı.



Zabit ön xətdə xidmət edən əsgərlərinin mənəvi-psixoloji hazırlığının yüksək olduğunu önə çəkdi. Dedi ki, düşmənlə aramızdakı məsafə çox yaxındı. Tez-tez postlarımız avtomat, pulemyot və başqa iri çaplı silahlardan atəşə məruz qalır. Belə olan halda biz də mütləq sərt şəkildə cavab verməyə məcbur oluruq.

Əsgərlərimizin də qorxubilməz, cəsur olduğunu bildirən zabit bizi fərqlənən əsgər və zabitlərlə tanış etdi. Bayaqdan adını eşitdiyim zabit Pərvin Muradov da burada idi. Ucaboy, sarışın, əsl döyüşçü görkəmli zabit ilə qısa söhbətimiz olduqca xoş məcrada alındı.

Babək rayonunun Nehrəm kəndindən olan bu cəsur döyüşçü Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini üç il bundan əvvəl bitirib. İki ilə yaxındır ki, xidmətini bu mövqelərdə davam etdirir.

Söhbət zamanı P.Muradov dedi ki, düşmən günün istənilən vaxtında mövqelərimizi atəşə tutur. Layiqli cavab atəşindən sonra atəşi dayandırırlar. O, silahdaşları ilə birlikdə düşmənin bir neçə canlı qüvvəsini məhv edib, döyüş texnikasını sıradan çıxardıb. Zabit deyir ki, onlar ermənilərin işğalı altında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyirlər.

Düşmənə sarsıdıcı zərbə vuran döyüşçülərə gəlincə, zabit ölkəmizin ayrı-ayrı bölgələrindən olan Vətən oğullarının yüksək döyüş hazırlığından razılığını ifadə etdi. Neftçalalı Şahmar Əzizov, kürdəmirli Namiq Abbasov, salyanlı Pilağa Quliyev və başqalarının adlarını qeyd etməklə bir daha onların düşmənə qarşı necə mərdliklə vuruşduqlarını bildirdi.

Baş gizir Dilsuz Babayevin xidmətlərini də yüksək qiymətləndirən zabit V.Verdiyev onu da əlavə etdi ki, o, bölmədə baş çavuş vəzifəsində olmasına baxmayaraq, həm də atəşkəsi pozan düşmənə cəsarətlə cavab verməklə bacarıqlı döyüşçü olduğunu dəfələrlə təsdiq edib.

Yayın ən qızmar günlərində düşmənlə üz-üzə xidmət edən bu Vətən oğullarının məqsədi, amalı yağı tapdağı altında qalmış torpaqlarımızı azad etməkdir. Onlar yaxşı bilirlər ki, düşmən işğal etdiyi torpaqlarımızdan xoşluqla çıxmasa, hər zaman döyüşə hazır olmalıyıq.

Bəli, düşmənlə təmas xəttində əsgərlərimiz bu cür düşünürlər və inanırıq ki, onlar məqsədlərinə çatana qədər mübarizəni davam etdirəcəklər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***8 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 110 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Cəvahirli, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***9 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 92 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Berkaber kəndində, Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərindən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Qızılhacılı, Fərəhli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Qızıloba, Göyarx, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Cəvahirli, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***10 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 105 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərindən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Qızıloba, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Cəvahirli, Kəngərli, Novruzlu, Şuraabad, Yusifcanlı, Qaraqaşlı, Mərzili, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, eləcə də Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Artilleriyaçılar vərdişləri yaxşı mənimsəyiblər



***Hərbi hissənin ərazisində kapitan Anar Abbasovla görüşüb söhbət etdim. O bildirdi ki, şəxsi heyət döyüş hazırlığını artırmaq məqsədilə müntəzəm məşq edir, təlim keçir. Zabit və əsgərlərimizin döyüş hazırlığı gündən-günə artır. Şəxsi heyət yaxşı dərk edir ki, torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün hazırlığımız yüksək səviyyədə olmalıdır. Bu, döyüşdə üstünlüyü təmin edən başlıca amildir.***

- Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək olması da başlıca amillərdəndir, - deyə kapitan Anar Əhmədov söhbətimizə qoşuldu. - Əsgərlərimizin mənəvi-psixoloji durumunu daha da artırmaq məqsədilə məşğələ və dərslər keçirik. Dərs prosesində Qarabağ müharibəsində zabit və əsgərlərimizin göstərdikləri qəhrəmanlıqlardan nümunə gətiririk. Onların düşmənə nifrət hissini daha da artırırıq. Bütün bunlar isə son nəticədə əsgərlərimizin mənəvi-psixoloji hazırlığının yüksəlməsinə gətirib çıxarır.

Qısa söhbətdən sonra kapitan Anar Əhmədovla birlikdə yaxınlıqda təlim keçib döyüş hazırlığını artıran topçuların yanına gəldik.

Kapitan Ramin Əliyev bildirdi ki, şəxsi heyət təsdiq olunmuş döyüş hazırlığı planına uyğun təlim keçib hazırlığını artırır. Zabit və əsgərlərimiz məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edərək hərbi biliklərini və peşəkarlıqlarını daha da yüksəltməyə çalışırlar. Onlar məqsədlərinə çatmaq üçün tədris vəsaitlərindən hərtərəfli istifadə etməyə çalışırlar.

Bir anlıq kənarda dayanıb topçuların məşğələsini izləyirik. Komandir artilleriya qurğusunun "döyüş" və "səfər" vəziyyətinə gətirilməsi üçün komandalar verir. Əmri eşidən kimi heyət nəfərləri irəli atılaraq cəld hərəkətlərlə topu "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Hərəkətlərindən hiss olunur ki, onlar vəzifələrini bilirlər. Çünki tapşırığı yerinə yetirən əsgərlər səhvə yol vermirlər.

- Heyət nəfərlərinin döyüş hazırlığını artırmaq məqsədilə məşğələ keçir, onlara hərbi biliklər aşılayırıq, - deyə baş leytenant Asim Ağakərimov sözə başladı. - Bugünkü məşğələ bir daha göstərdi ki, əvvəlki dərs və məşğələlər səmərəli keçib. Gördüyünüz kimi, heyət nəfərləri verilən bütün əmr və tapşırıqları bacarıqla yerinə yetirirlər. Əminəm ki, bu gün təlimdə fərqlənən əsgərlər sabahkı döyüşlərdə uğur qazanacaqlar.

Baş leytenant Asim Ağakərimov söhbətinə davam edərək təlimdə fərqlənən əsgərlərdən top komandiri Orxan Bəşirovun, heyət nəfərlərindən Ziyafət Quluyevin, Adil Fərhadlının, Dayandur Hümbətovun, Azər Əliyevin, Azad Orucovun və başqalarının adlarını çəkdi, xidmətlərindən razılıq etdi.



Məşğələ öz axarı ilə davam edir. Heyət nəfərləri bacarıq nümayiş etdirərək cəld hərəkətlərlə artilleriya qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Hiss olunur ki, onlar keçirilən məşğələlərdə bilik və vərdişləri yaxşı mənimsəyiblər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

# Vətənimizin dağ vüqarlı keşikçiləri

Müşahidə məntəqəsində döyüş növbəsi çəkən əsgər Mirabit Əzizov "Azərbaycan Ordusu" qəzetinin daimi oxucusu olduğunu deyir. "Qəzetin səhifələrində yer alan bütün məqalələri oxuyuruq. Bəzən elə mövzularda yazılar olur ki, onları müzakirə edirik. Məsələn, tarixi səpkili məqalələr çox xoşumuza gəlir. Asudə vaxtımızı səmərəli təşkil edir, biliyimizi daim artırırıq, Azərbaycanın Milli Qəhrəmanlarının torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüz uğrunda apardığı mübarizələri öyrənirik. Albert Aqarunovun, Çingiz Mustafayevin, Mübariz İbrahimovun və başqalarının qəhrəmanlığından danışırıq", - deyə əsgər Mirabit Əzizov gözlərini müşahidə mövqeyindən ayırmadan bizimlə sağollaşır.

Əsgər Elnur Şirinov hələ orduya gəlməzdən öncə hərb işinə maraq göstərdiyini və orta məktəb illərində ibtidai hərbi hazırlıq dərslərində öyrəndiklərinin indi gərəyi olduğunu deyir. Hərbi xidmətə başladığı ilk vaxtlarda təlim-məşqlərdə qarşılaşdığı çətinlikləri asanlıqla dəf edən Elnur bu gün silahından mükəmməl istifadə edir.

Söhbətimizə qoşulan əsgər Rasim Abbasov ata-baba yurdu Laçını görməyib. Mənfur qonşularımızın işğalına məruz qalan Laçının baş-başa verən dağlarını, sərt qayalarını xəyalında canlandırıb yaşatdığını və buranın gözəl təbiətinə bənzətdiyini deyir. Ata ocağını işğal edən düşmənə sonsuz nifrət hissi bəslədiyini bildirən Rasim, şəhidlərimizin qisasının alınacağı, erməni quldurlarının tapdağında qalmış Vətən torpaqlarının azad ediləcəyi günün uzaqda olmadığını söyləyir.

Əlçatmaz dağların keçilməz sədlərində Vətən torpağının keşiyini çəkən hərbçilərimizdən bölük komandiri baş leytenant Anar Abışov və taqım komandirinin müavini gizir Şükür Əliyev əsgərlərimizin döyüş bacarığından, komandirlərin verdiyi əmr və tapşırıqları layiqincə yerinə yetirmələrindən, şəxsi heyət arasında möhkəm dostluq, yoldaşlıq münasibətlərindən söhbət açırlar.



Öyrənirəm ki, baş leytenant Anar Abışov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 2010-cu il məzunudur.

Gizir Şükür Əliyev isə doğulduğu Tovuz rayonundan könüllü olaraq, torpaqlarımızın azadlığı və erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün Azərbaycan Silahlı Qüvvələrinin sıralarına yenidən qayıdıb.

Artıq nahar vaxtıdır. Əsgərlərlə birlikdə nahar etmək üçün yeməkxanaya daxil oluruq. Ön xətdə səngər şəraitində yaradılan, mətbəxi zəruri avadanlıqlarla təmin edilən yeməkxanada səliqə-sahmanın, təmizliyin şahidi oluruq. Masalara düzülən meyvə, şirə, salat və digər azuqələr hərbçilərimizin nahar menyusuna daxildir. Bölüyün baş çavuşu Niyaməddin Fətullayev bildirir ki, əsgər və zabitlərimizin qidalanması yüksək səviyyədədir və yeməkxanamızda hazırlanan yeməklər ev xörəklərindən fərqlənmir, dadlı-tamlı olur, iştahla yeyirik.

Hərbçilərimizin dağ otlarından dəmlənmiş, şirniyyatlı, mürəbbəli samovar çayına da qonaq oluruq.

Vətənimizin dağ vüqarlı keşikçiləri, böyük Yaradan sizləri də qorusun.

Maşın təhlükəli, sürüşkən yollardan keçərək dağ aşağı istiqamət götürür...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Əfqanıstan müharibəsi veteranlarının bir qrupu cəbhə bölgələrinə yola düşüb

***Əfqanıstan müharibəsi veteranlarının bir qrupu Şəhidlər xiyabanını ziyarət edərək cəbhə bölgələrinə yola düşüb.***

Sıralarında üç min nəfərdən çox veteranı birləşdirən Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin fəaliyyətində əsas istiqamətlərdən biri gənclərin orduya hazırlanması, hərbi vətənpərvərlik tərbiyəsi, xüsusilə də Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində məqsədyönlü işin aparılmasıdır.

Təşkilatın sədri Məhəmməd Vəliyev cəbhə bölgələrinə yola düşməzdən öncə deyib ki, digər qeyri-hökumət təşkilatları kimi, bizim ictimai birlik də ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. Müvafiq nazirlik və komitələr böyük köməkliklər göstərir. Bu günlərdə təşkilatımıza yeni ofis də verilib. Biz də çalışırıq ki, həmişə, hər yerdə xalqımıza, dövlətimizə sədaqət nümunələri göstərək.

Ümummilli liderimiz Heydər Əliyev biz Əfqanıstan müharibəsi veteranlarını böyük qüvvə kimi qiymətləndirərdi. 1993-cü ilin 2 noyabrında ulu öndər Azərbaycan Radio və Televiziyası ilə xalqa müraciət edəndə, dahi rəhbərimizin səsinə ilk səs verənlər məhz Əfqanıstan müharibəsi veteranları oldu. İki gün sonra bizi indiki Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzində qəbul edən əbədiyaşar Ali Baş Komandanımızın o vaxt dediyi sözləri heç vaxt unutmuruq: "Əgər Azərbaycan oğulları, Azərbaycanın yetirmələri başqa bir ölkədə, sovet ordusu tərkibində vuruşa bilirdilərsə, qəhrəmanlıq nümunələri göstərə bilirdilərsə, deməli, onlar öz torpaqlarını daha cəsarətlə, ürəklə qoruya bilər və torpaqlarımız uğrunda döyüşə bilərlər".



Bəli, biz o gün xalqımızı və dövlətimizi min cür bəlalardan xilas edən ulu öndərimizdən xeyir-dua alaraq Qarabağ uğrunda döyüşlərə yollandıq. Şəhidlərimiz də az olmadı. Səkkiz nəfər silahdaşımız Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü, onlarla Azərbaycan “əfqanı” müstəqil dövlətimizin yüksək döyüş orden və medalları ilə təltif olundu. Hazırda Silahlı Qüvvələrin sıralarında, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinin müəllim və zabit heyətlərinin tərkibində də Əfqanıstan müharibəsi veteranları kifayət qədərdir və biz Ali Baş Komandanın əmrlərinə hər an hazırıq.

M.Vəliyev cəbhə bölgələrinə növbəti səfərlə bağlı vurğulayıb ki, son vaxtlar cəbhədə Ermənistan silahlı bölmələri daha da fəallaşıb. Hər gün atəşkəs rejimi dəfələrlə pozulur. Lakin Azərbaycan əsgəri qəhrəmanlıq nümunələri göstərərək düşməni cavab atəşləri ilə susdurur, kəşfiyyat-təxribat qrupları əvvəlcədən aşkarlanaraq qarşısı mərdliklə alınır. Təxribat uçuşları edərək hava məkanımıza daxil olmuş düşmən helikopterinin vurulması, bir neçə pilotsuz uçuş aparatının məhv edilməsi bütün xalqımız kimi bizi də sevindirir. Fəxr edirik ki, ordu quruculuğu məsələləri Ali Baş Komandanımızın Prezident kimi fəaliyyətində prioritetdir. Biz fəxr edirik ki, Müdafiə Nazirliyi rəhbərliyinin səsi-sorağı mütəmadi olaraq cəbhə bölgələrindən, ön səngərlərdən gəlir. Həm ordumuz, həm də xalqımız işğal olunmuş torpaqlarımızı tezliklə azad etmək əzmi ilə yaşayır. Möhtərəm Prezidentimiz İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun son vaxtlar səsləndirdikləri fikirlər bizi yenidən hərəkətə gətirib. Tətilimizi yarımçıq qoyaraq bu gün cəbhə bölgəsində, Azərbaycan əsgərinin yanında, onunla bir yerdə ön səngərdə olmağı qərara almışıq.

Əfqanıstan müharibəsi veteranlarını cəbhə boyu bölgələrdə müşayiət edəcək Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani isə bildirib ki, bir həftə davam edəcək bu səfər zamanı cəbhə bölgələrindəki hərbi hissələrin şəxsi heyəti, eləcə də yerli əhali ilə görüşlər təşkil olunacaq, Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Əfqanıstan müharibəsi veteranları olan Milli Qəhrəmanlar anılacaq, peşəkar veteranlar müxtəlif hərbi ixtisaslar üzrə gənc əsgərlərlə məşğələlər keçəcək, birgə təlimlərə qatılacaq, ayrı-ayrı postlarda gecə döyüş növbəsində duracaqlar. “Bütün bunlar hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə və qarşıya qoyulmuş müqəddəs vəzifələrin qələbə ilə nəticələnəcəyinə yönəldilmiş tədbirlərdir”.

Veteranlardan iki dəfə "Qırmızı Bayraq" ordenli ehtiyatda olan polkovnik-leytenant Şakir Əhmədov, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, "Qırmızı Ulduz" ordenli Əbülfət Hüseynov və Müdafiə Nazirliyinin zabiti polkovnik Nazim Əhmədov böyük əminliklə bildiriblər ki, Əfqanıstan müharibəsi veteranlarının cəbhə boyu bölgələrə bu səfəri həm Vətən müdafiəçilərinin, həm də veteranların həyatında unudulmaz hadisəyə çevriləcəkdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

---

Tibb xidməti

# Şəfalı əllərin sahibləri

***Ordumuzun son illərdə qazandığı uğurlardan danışarkən hərbi təbabətimizin inkişafını qeyd etməmək olmur. Hazırda Silahlı Qüvvələrimizdə ən müasir tələblərə cavab verən müalicə müəssisələri yaradılıb və bu müəssisələrdə zabit və əsgərlərimizin sağlamlığı keşiyində dayanan savadlı, bacarıqlı həkim və mütəxəssis nəsli yetişib. Bu gün Silahlı Qüvvələrimizin hospitallarında ən mürəkkəb əməliyyatlar aparılır ki, buna ancaq sevinmək olar. Bu günlərdə Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikasında müayinə və müalicənin təşkili ilə maraqlandıq.***



- Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikası ixtisaslaşdırılmış hərbi tibb müəssisəsidir, - poliklinikanın rəisi tibb xidməti polkovniki Firudin Qarabəyov bizimlə söhbətində bildirdi. - Bildiyiniz kimi, poliklinikamızın binası 2011-ci ildə yüksək səviyyədə təmir edilərək hərbçilərin sərəncamına verilib. Bölmələrimizin hamısı ən müasir tibbi avadanlıqlarla təmin olunub və poliklinikada şəxsi heyətin müayinə və müalicəsi üçün lazım olan bütün bölmələr və kabinetlər faktiki olaraq mövcuddur.

Onu da qeyd edim ki, Poliklinikanın Bakı Qarnizonu hərbi hissələrinin zabit, gizir və əsgərlərinin ambulator müayinə və müalicəsini aparır.



Hərbi qulluqçulardan əlavə poliklinikada ehtiyatda olan hərbi qulluqçular, onların həyat yoldaşları və 18 yaşına çatmamış övladları qeydiyyata alınır, burada ambulator müayinə və müalicə alırlar.

Eyni zamanda hərbi tibb fakültəsinə, hərbi məktəblərə daxil olan abituriyentlərin, hərbi liseyə qəbul edilən kursantların müayinəsinin aparılması və şəhadətləndirilməsi də poliklinikada həyata keçirilir.

- Hərbi qulluqçuların sağlamlığının keşiyində durmaq, onlara ambulator tibbi yardım göstərmək, müalicəyə ehtiyacı olanları stasionar müalicəyə göndərmək əsas vəzifəmizdir, - bizimlə söhbətində rəisin tibb hissəsi üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Malik Abbasov dedi. - Bundan əlavə, son zamanlar ordumuzun sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilən şəxslərin hərbi həkim komissiyasından keçirilməsi də poliklinikamızda gerçəkləşdirilir. Orduya yalnız sağlam gənclərin qəbul edilməsi başlıca qayğımızdır. Eyni zamanda, poliklinikanın şəxsi heyətinin komandir və ixtisas hazırlığının yüksəldilməsi qarşımızda duran ən mühüm vəzifələrdən biridir.

Bu gün fəxrlə deyə bilərik ki, Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikası Azərbaycanın səhiyyə sistemində qabaqcıl müayinə və müalicə ocağıdır. Poliklinikanın bölmə və kabinetlərinə baş çəkdik, tibbi xidmətin səviyyəsilə yaxından tanış olduq.

Poliklinikanın müasir tələblərə cavab verən radiologiya bölməsində ultrasəs müayinə üzrə hazırda iki müasir aparatdan istifadə edilir. Rentgen bölməsində həm flüoqrafiya, həm rentgenoskopiya, həm rentgenoqrafiya, həm də stomatoloji ponoram rentgen aparatı fəaliyyət göstərir.

- Bildiyiniz kimi, düzgün diaqnoz qoyulmadan heç bir xəstəlik müalicə edilə bilməz, - radiologiya bölməsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Şamo Abbasov deyir. - Bunun üçün düzgün diaqnostik müayinə zəruridir. Gün ərzində hərbi hissələrdən gətirilmiş xəstələr rentgen bölməsində hərtərəfli müayinədən keçirilirlər. Onlar yüksək səviyyədə müayinə edilirlər və xəstələrə düzgün diaqnoz qoyulur.

Poliklinikanın cərrahiyyə bölməsinin rəisi, tibb polkovnik-leytenantı Mətanət Abbasova söhbətində qeyd edir ki, əsas vəzifəsi bölməyə müraciət edən xəstələrin ambulator müayinə və müalicəsini səmərəli təşkil etməkdir. “Ehtiyacı olan ağır xəstələrin təcili Silahlı Qüvvələrin Baş Klinik Hospitalında yerləşməsini, onlar üçün tibbi məsləhətləşmələr təşkil edir, eyni zamanda hərbi həkim ekspertizasına gətirilən pasientləri müayinədən keçirib rəy veririk”.

Mərkəzi Hərbi Poliklinikada müasir laboratoriya da fəaliyyət göstərir. Orada hazırda bütün xəstəliklərin müayinəsi aparılır. Həm kliniki, həm də kimyəvi, bakterioloji, immunoloji analizlər edilir. Yəni, poliklinikaya gələn bütün hərbi qulluqçular bütün müayinələrdən keçirlər.

- Laboratoriyamız, demək olar ki, bütün müvafiq analizlər üçün ən müasir avadanlıqlarla təchiz edilib və müayinə üçün hər cür şəraitimiz var, - laboratoriya bölməsinin rəisi, tibb xidməti kapitanı Hamlet Hüseynov bildirir. - Mütəxəssislərimiz öz vəzifələrini yüksək səviyyədə yerinə yetirməyə qadirdirlər. Həkim-mütəxəssis Solmaz Osmanovanın sözlərinə görə, burada qanın 18 parametrli analizi aparılır, biokimyəvi, immunoloji analizlərin nəticələri olduqca yüksəkdir. Hər gün səhər işə başlarkən bütün cihazlar sıfırlanır, düzgün işləməsi yoxlanılır, analizlər bundan sonra aparılır. Bir sözlə, hər şey yüksək səviyyədədir.

Poliklinikada əsas mütəxəssislər - bölmə və kabinet rəisləri hərbi qulluqçulardır və hərbi tibb müəssisələrində xidmət etmiş təcrübəli tibb zabitləridir. Mütəxəssislərimiz Hərbi Tibb Fakültəsində hər üç ildən bir ixtisasartırma kursları keçirlər, - polkovnik Qarabəyov deyir. - Həkimlərimizin əksəriyyəti ixtisasını artırmaq üçün Türkiyə Silahlı Qüvvələrinin Gülhanə Hərbi Tibb Akademiyasına göndərilir. Hazırda Türkiyədə kursda olan zabitlərimiz var və onlar qayıtdıqdan sonra zabit, gizir və əsgərlərimizə daha keyfiyyətli tibbi yardım göstərilməsi üçün səylərini əsirgəməyəcəklər.



- Hazırda hərbi xidmətə daxil olmağa hazırlaşan şəxslərin müayinəsini aparırıq, - həkim-oftalmoloq Şəhla Adıgözəlova deyir. - Budur, müayinə etdiyimiz gənc qız ordu sıralarında müvafiq ixtisas üzrə xidmət etmək qərarına gəlib. Qadınlarımızda hərbi xidmətə marağı ancaq alqışlamaq olar. Müayinənin nəticəsi də müsbətdir və xanım müddətdən artıq xidmətə tam yararlıdır.



Şəhla xanım onu da bildirir ki, kabinet müasir oftalmoloji aparatlarla təmin olunub. Yəni, gözlə bağlı bütün müayinələr burada yüksək səviyyədə aparılır.

Poliklinikanın stomatologiya kabinetinin rəisi, tibb xidməti mayoru Rövşən Hüseynov xəstənin dişinin müalicəsilə məşğul idi.

- Əsgər diş ağrıları ilə bağlı bizə müraciət edib, - mayor Hüseynov deyir. - Hazırda bizim stomatologiya qurğusu ən müasir tələblərə cavab verir, yüksək keyfiyyətli müayinə və müalicə aparmaq üçün hər şəraitimiz var.

Mərkəzi Hərbi Poliklinikanın otorinolarinqologiya kabinetinin rəisi Zamin Həsənov deyir:

- Xroniki əng sinusitilə kabinetə müraciət etmiş əsgərin müayinəsini aparırdıq, əsgər şikayətinə əsasən müayinə edildi və ambulator müalicə təyin olunub.

Poliklinikada olarkən aptekə də baş çəkdik. Aptek rəisi Arzu Orucova bizimlə söhbətində poliklinikanın lazımi dərman və preparatlarla təmin edildiyini söylədi. Bildirdi ki, burada ambulator xəstələrin dərmanla təminatı həyata keçirilir.

Tibb xidmətilə tanış olanlar yaxşı bilirlər ki, poliklinikaların fəaliyyətinin səmərəli qurulmasında baş tibb bacılarının da zəhməti az deyil. Mərkəzi Hərbi Poliklinikanın baş tibb bacısı Gülnarə Kələntərovanı da təcrübəli tibb mütəxəssisi kimi təqdim etdilər.

Mərkəzi Hərbi Poliklinikada gördüklərimiz, sözün həqiqi mənasında, ürəkaçandır. Burada mövcud olan şərait onu deməyə əsas verir ki, hərbçilərimizin sağlamlığı etibarlı əllərdədir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı***

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri*

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;

- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;

- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir. Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır və torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;

- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;

- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;

- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;

- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;

- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;

- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### *Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi*

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları:

"Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının və fəaliyyətinin hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və tərbiyəvi işlər üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Əsgərlərdə öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında humanitar hazırlıq dərslərinin böyük rolu var. Ona görə də humanitar hazırlıq dərslərində qrup rəhbərləri hərbi qulluqçulara döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda kömək edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir*

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən qışlada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur; gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlanclarların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

Cəmşid Naxçıvanski - 120

# “O, qayıdacağına inanırdı”

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyi ilə əlaqədar xatirə mərasimi keçirilib




***Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2 aprel 2015-ci il tarixli Sərəncamından irəli gələn vəzifələr ölkəmizdə uğurla həyata keçirilməkdədir. Müdafiə Nazirliyinin Təhsil, Mədəniyyət və Turizm Nazirliklərinin təklifləri nəzərə alınmaqla hazırladığı tədbirlər planına əsasən, təşkil olunan yubiley tədbirlərində minlərlə hərbi qulluqçu və mülki əhali iştirak etmişdir.***

Azərbaycan Veteranlar Təşkilatının Akt zalında keçirilən "O, qayıdacağına inanırdı" adlı mərasimə toplaşan müharibə, əmək, Silahlı Qüvvələr, hüquq-mühafizə orqanları veteranları, hərbi qulluqçular, eləcə də, ictimaiyyətin nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Veteranlar Təşkilatı sədrinin birinci müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik Cəlil Xəlilov giriş nitqi söyləyib. O, qeyd edib ki, Azərbaycanın hərb tarixinin öyrənilməsi, təbliği, görkəmli hərb xadimlərinin yubileylərinin dövlət səviyyəsində qeyd olunması istiqamətində ulu öndərimiz Heydər Əliyevin ənənələri bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tam artilleriya generalı Əlağa Şıxlinskinin 150, Cəmşid Naxçıvanskinin 120 illik yubileylərinin keçirilməsi haqqında Prezident sərəncamlarını bütün xalqımız, Silahlı Qüvvələrin şəxsi heyəti kimi, respublika veteranları da böyük rəğbətlə qarşılayıblar. Həqiqətən də, xalqın hərbi şöhrət tarixini bilmədən, görkəmli sərkərdələrini, qəhrəmanlarını tanımadan yeni qəhrəmanlar yetişdirmək olmaz. Ulu öndərimizin dəfələrlə qeyd etdiyi kimi, atalarımızın, babalarımızın, əcdadlarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi sücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermiş, ölkədə yüksək ixtisaslı hərbi kadrların yetişməsində müstəsna xidmətləri olmuş və hər şeydən öncə, komandirlik etdiyi süvari alayının şəxsi heyəti ilə birlikdə erməni daşnaklarına qarşı mübarizədə misilsiz igidliklər göstərmiş görkəmli sərkərdənin qısa, lakin mənalı və şərəfli ömür yolu barədə geniş məruzə ilə çıxış edib.

Qeyd olunub ki, Kəngərlilər nəslinin ailə ənənələrinə uyğun olaraq Cəmşid Cəfərqulu xan oğlu da digər qardaşları kimi erkən yaşlarından öz taleyini hərbi peşəyə - Vətənə xidmət peşəsinə bağlayıb. O, bu peşəni seçərkən hara gedəcəyini, hansı maneələrə rast gələcəyini, hansı sınaqlardan çıxacağını çox yaxşı bilirdi. Onu da yaxşı bilirdi ki, həyatını bu peşəyə həsr edənlər, uzun səfərə çıxanlar, azadlıq, istiqlaliyyət mücahidləri öz ömürlərini xalqının, millətinin gələcəyinə qurban deyən insanlardır. Bu yolda isə bir addım da olsun geriyə yol yoxdur.

Cəmşid Naxçıvanski də Kəngərlilər nəslinin digər generalları kimi Çar ordusunda öz istedad və bacarığı ilə bir daha təsdiq edib ki, azərbaycanlılar digər sahələrlə yanaşı, hərbi işdə də yüksək peşəkarlığa malikdirlər.

Çar hökuməti devrildikdən sonra Tiflisə qayıdan Cəmşid Naxçıvanski az sonra oz tatar-süvari alayı ilə birlikdə Azərbaycan hökumətinin tabeçiliyinə keçmiş və beləliklə, Silahlı Qüvvələrimizin yaradılmasında yaxından iştirak etmişdir. O, Gəncədə, Göyçay ətrafında, Kürdəmirdə, eləcə də, Bakıda daşnak-bolşeviklərə qarşı mübarizədə öz vətənpərvərlik borcunu layiqincə yerinə yetirmiş, Şuşada, Əsgəran qalasında əsl fədakarlıqlar göstərmişdir. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın gələcəyi onu daim düşündürmüş və bu istiqamətdə xeyli işlər görmüşdür. Arxivlərin sirri açılandan sonra məlum olmuşdur ki, Cəmşid Naxçıvanski məhz Azərbaycanın azadlığı uğrunda ilk mübarizlərdəndir. O, Azərbaycan Milli Mərkəzi adlanan antisovet, millətçi təşkilatın fəal iştirakçısı olmaqla, Azərbaycanda sovet hökumətinin devrilməsi planının hazırlanmasında, Azərbaycanın Sovet İttifaqından ayrılmasında fəal iş aparmış, Azərbaycanda hərbi üsyan planını şəxsən hazırlamışdır.

Sonuncu dəfə həbs olunarkən o həyat yoldaşı və körpə qızının qarşısında öz təmkinini belə pozmamış, tezliklə qayıdacağını bildirmişdir.

1938-ci il avqustun 26-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 15 dəqiqə çəkən qapalı məhkəmə iclasında "Sovet hökumətinin qatı düşməni, müqəssir" kimi təqsirləndirilərək ölüm hökmü oxunan Cəmşid Naxçıvanski uzun illər keçdikdən sonra xalqımızın müdrik oğlu Heydər Əliyevin qətiyyəti sayəsində yenidən xalqın xatirəsində əbədi yaşamaq hüququ qazanmışdır. Hələ ötən əsrin 70-ci illərində mətin sərkərdənin adı əbədiləşdirilmiş, Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulmuş, küçələrdən birinə onun adı verilmiş, Naxçıvanda ev muzeyi yaradılmış, yubileyi dövlət səviyyəsində qeyd olunmuş və adını daşıyan indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılmışdır.






Yorulmaz tədqiqatçı-jurnalist, yazıçı-publisist, ehtiyatda olan polkovnik-leytenant Şəmistan Nəzirli ömrünün yarıdan çoxunu Azərbaycan sərkərdələrinin irsinin araşdırılmasına, öyrənilməsinə və təbliğinə həsr etdiyini qeyd edərək bildirib ki, Cəmşid Naxçıvanskinin 43 illik ömür yolu hələ də yetərincə araşdırılmayıb. “Heydər Əliyev Fondunun dəstəyi ilə rus yazıçısı İvanovun ikicildliyinin oxucuların ixtiyarına verilməsi təqdirəlayiqdir. Ancaq Azərbaycan dilində həm elmi-tədqiqat əsərlərinə, həm də bədii əsərlərə, sənədli və bədii filmlərə çox ehtiyacımız var. Bu gün Cəmşid Naxçıvanski ən azı xüsusi təyinatlı təhsil müəssisələrində öyrənilməlidir. Bir də ki, onun həm Naxçıvanda, həm də Bakıda at belində, sərkərdə qiyafəsində abidəsinin ucaldılmasının vaxtı çoxdan çatmışdır”.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov isə araşdırmaları zamanı Cəmşid Naxçıvanski haqqında əldə etdiyi yeni arxiv sənədləri barədə məlumat verib, ssenarisi əsasında İctimai Televiziyada sənədli filmin çəkilişlərinin başa çatdığını bildirib.

Digər çıxış edənlər də görkəmli hərbi xadimlərin adlarının əbədiləşdirilməsi və yubileylərinin dövlət səviyyəsində qeyd olunmasına göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

Mərasimdən sonra bir qrup iştirakçı Cəmşid Naxçıvanskinin 1927-1931-ci illərdə yaşadığı ünvana gedərək, binaya vurulmuş xatirə lövhəsinin qarşısına çələng qoyublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Naxçıvanda görkəmli sərkərdə yad edilib




***Azərbaycanda ilk milli diviziyanın yaradıcısı olan görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adı ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı sayəsində hərb tariximizdə əbədiləşib.***

AZƏRTAC xəbər verir ki, bu fikirlər Naxçıvan Qarnizonunun Zabitlər Evində Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə keçirilən tədbirdə səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov tədbirdə çıxış edərək bildirib ki, 1971-ci ildə Moskvanın əsassız cəhdlərinə baxmayaraq, Bakı şəhərində respublika hərbi təyinatlı orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbə verilib. Sonralar həmin məktəb hərbi liseyə çevrilib. Böyük sərkərdənin adına indi ölkəmizdə hərbi lisey, ev-muzeyi və tam orta məktəb var.

Qeyd olunub ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il aprelin 2-də imzaladığı Sərəncamda deyilir: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir".



Vurğulanıb ki, böyük sərkərdənin yubileyi doğulub boya-başa çatdığı Naxçıvanda da geniş qeyd edilir. Belə ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il aprelin 9-da imzaladığı sərəncamla tədbirlər planı təsdiq edilib. Həmin plana əsasən, muxtar respublikada hərb tariximizin görkəmli simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilir.

Tədbirdə çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, "N" hərbi hissəsinin hərbi qulluqçusu, kiçik çavuş Asim Əbilov görkəmli sərkərdənin həyat yoluna nəzər salaraq bildiriblər ki, Cəmşid Naxçıvanski Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan, iki dəfə haqqında ölüm hökmü çıxarılan və mənəvi sarsıntılara məruz qalan, amma bütün bunların qarşısında sınmayan bir şəxsiyyət idi. Buna görə də Kəngərli tayfasının onlarla görkəmli nümayəndəsi arasında Cəmşid Naxçıvanskinin həyatı və fəaliyyəti maraqlı məqamları ilə seçilir. General Cəmşid Naxçıvanskinin adı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Onun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir.

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Xəzər Lənkəran" və "Zirə"dən uğurlu start, "Neftçi" "Kəpəz"i bir xalla yola saldı



Topaz Premyer Liqasında 2015-16-cı illər mövsümünə start verilib. Apasport.az saytının məlumatına görə, 80 günlük istirahətdən sonra turnir 3 oyunla başlayıb.

"Neftçi" ilk turda "Kəpəz"i qəbul edib. Tərəflərin qarşılıqlı cəhdlərinə baxmayaraq komandalardan heç biri fərqlənə bilməyib.

"Zirə" Premyer Liqada ilk matçını AZAL-a qarşı keçirib. Adil Şükürovun yetirmələri elitadakı ilk matçında qələbə qazanıb. Premyer Liqanın yenisi rəqibini "öz silahı" ilə vurub. Belə ki, AZAL-dan transfer olunan Viktor İqbokoyi yeni komandasına sevinc, köhnə klubuna isə kədər bəxş edib.

Avropa Liqasında 2 mərhələ adlayan "İnter" isə "Xəzər Lənkəran"ın qonağı olub. Cənublular 2 cavabsız qolla qalib gəlib.

## Avropada "Zirvə fırtınası": atletlərimiz fəxri kürsüdə!



Avqustun 1-dən 9-dək İsveçin Landskrona şəhərində keçirilən yaşı 15 və 17-yə qədər olan yeniyetmələrin ağır atletika üzrə Avropa birinciliyi başa çatıb.

AZƏRTAC xəbər verir ki, yaşı 17-yə qədər olan oğlanların mübarizəsində 85 kq çəki dərəcəsində idmançımız Hüseyn İsmayılov körpücük üzərinə çıxıb. O, toplamda 300 kq (139+161) nəticə ilə yekun sıralamada 4-cü olsa da, birdən qaldırmada Avropanın ən yaxşısı olub.

## Qəbələdə Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarında ilk qalib idmançılar məlum olub



Qəbələ Stend və Ox Atıcılığı Kompleksində Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının final mərhələsi çərçivəsində ilk qalib idmançıların adları məlum olub.

AZƏRTAC xəbər verir ki, dairəvi səngər stend atıcılığı üzrə keçirilən yarışlarda qadın idmançılardan Spada Katyuşa (İtaliya) birinci, Connor Caitlin (ABŞ) ikinci, Hill Amber (Böyük Britaniya) üçüncü yeri tutub.

Atıcılığın 17 növü üzrə keçirilən bu yarışlarda idmançılar 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarına 34 lisenziya uğrunda mübarizə aparır. Ölkəmizi bu mötəbər yarışlarda 27 idmançı təmsil edir.

## Yunan-Romaçılarımız daha 1 qızıl və 1 bürünc medal qazandı



Serbiyanın Subotiça şəhərində yeniyetmə güləşçilər arasında Avropa çempionatı başa çatıb.

100 kq çəki dərəcəsində yığmamızın üzvü Camal Feyziyev finalda Rusiya təmsilçisi ilə gərgin keçən görüşü üstün tamamlayıb (2:1) və Avropa çempionatının qızıl medalını qazanıb. 46 kq çəkidə mübarizə aparan Zaur Nuriyev Avropa çempionatının bürünc medalına yiyələnib.

Ümumilikdə 1 qızıl və 2 bürünc medal qazanan yunan-Roma güləşçilərimiz komanda hesabında Rusiya, Gürcüstan və Türkiyədən sonra 4-cü yeri tutub.

Çempionatda sərbəst güləşçilərimiz 2 qızıl və 3 bürünc, yeniyetmə qızlar isə 1 gümüş və 1 bürünc medal qazanıblar.

## Ağdamın "Qarabağ" komandasının rəqibi "Yanq Boyz" klubudur




Ağdamın "Qarabağ" komandasının UEFA Avropa Liqası yarışlarının pley-off mərhələsindəki rəqibi İsveçrənin tanınmış "Yanq Boyz" klubudur. Əsası 1898-ci ildə qoyulan "Yanq Boyz" ötən mövsüm İsveçrə superliqasında ikinci pilləni tutaraq UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində mübarizə aparmaq hüququ qazanıb. Bu mərhələdə Fransanın "Monako" klubuna öz meydanında 1:3 hesabı ilə məğlub olub. Fransada keçirilən oyun isə "Monako" kollektivinin "Yanq Boyz" komandası üzərində 4:0 hesablı qalibiyyəti ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan çempionu "Yanq Boyz"la ilk oyununu avqustun 20-də Bern şəhərində keçirəcək. Rəqibi bir həftə sonra isə Bakıda doğma meydanda qəbul edəcək.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 601
Nüsxə 4700